# ABŞ yeni müharibə ocağı yaratmağa çalışır

"Milli Məclisin ABŞ ilə bağlı qəbul etdiyi bəyanat günün reallığı və Azərbaycan xalqının səsidir. Son günlərdə ABŞ senatorları və konqresmenləri Azərbaycan haqqında uydurma bəyanatlar yayır, şər-böhtan, yalan kampaniyalarını genişləndirirlər. ABŞ yeni müharibəyə rəvac verir, Ermənistandakı revanşistlərin maraqlarını təmin etməklə, onları silahlandırmaqla Cənubi Qafqazda müharibə ocağı yaradır".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib. Komitə sədri bildirib ki, heç bir ölkə öz haqsız mövqeyini bizə qəbul etdirə bilməz. Milli Məclisin noyabrın 21-də qəbul etdiyi bəyanat da bunu sübut etməklə yanaşı, həm də ABŞ-nin ikiüzlü siyasətini dünyaya bir daha nümayiş etdirir.

"Məlum olduğu kimi, ABŞ Senatının 1992-ci ilin oktyabrında qəbul etdiyi "Azadlığa dəstək aktı"na 907-ci düzəliş olunub. Bununla Azərbaycana ABŞ tərəfindən ediləcək yardım kəsilib. Torpaqlarımızın hər gün işğala məruz qaldığı və xalqımızın erməni təcavüzkarlarının amansız davranışları ilə üz-üzə olduğu bir vaxtda Azərbaycan haqda qərəzli qərar qəbul etmək, onu təcavüzkar kimi dəyərləndirərək ayrılan maliyyə vəsaitini kəsmək çox böyük ədalətsizlik idi. Bu addım birbaşa anti-Azərbaycan mövqeyidir. ABŞ elə bu gün də həmin mövqeyini ortaya qoyub", - deyə deputat bildirib.

Tahir Rzayevin sözlərinə görə, ABŞ Azərbaycanın tamamilə müstəqil siyasət yürütməsini, beynəlxalq aləmdə ölkəmizin nüfuzunun günü-gündən yüksəlməsini həzm edə bilmir. Çünki ABŞ-yə onun kölgəsində olan, tələblərini şərtsiz yerinə yetirən və hər addımda onunla razılaşan bir dövlət lazımdır. Lakin unudur ki, bu, Azərbaycan üçün keçərli deyil. Prezident İlham Əliyev də dəfələrlə bildirib ki, biz müstəqil siyasət yürüdürük və heç bir ölkənin diktəsi ilə işləmirik.

"Bütün bu faktorları nəzərə aldıqda, Milli Məclisin bəyanatının reallıqlara əsaslandığı aydın olur. Parlament ABŞ-nin anti-Azərbaycan mövqeyini pisləyir və özünü demokratik adlandırsa da, bunu əməldə sübut etməyən bir ölkənin mövqeyini, dünya xalqlarına və müxtəlif ölkələrin parlamentlərinə çatdırır. Azərbaycan xalqı həqiqəti yaxşı bilir və başa düşür ki, bu gün ABŞ, eləcə də Avropanın bəzi ölkələri, xüsusilə Fransa və Almaniya Cənubi Qafqazda möhkəmlənərək region dövlətlərinə təsir etmək niyyətindədirlər. Tarixən müstəmləkəçiliklə məşğul olan, başqa dövlətlərin torpaqlarını işğal etməyi, xalqlarını müstəmləkədə saxlamağı dövlət siyasətinin əsasına çevirən ABŞ Cənubi Qafqazda özünə yer etmək niyyətinə görə birinci sıradadır", - deyə müsahibimiz bildirib.

Komitə sədri qeyd edib ki, ABŞ heç də erməni xalqının rifahını, Ermənistanın inkişafını düşünmür. Onun məqsədi Cənubi Qafqaz respublikalarını təsir altına salmaq, sərvətlərimizi talamaq və ayrı-ayrı dövlətləri öz diktəsi ilə oturub-durmağa məcbur etməkdir. Buna görə də Ermənistandan alət kimi istifadə edir.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 23 noyabr, № 255.- S.9.